# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1144-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 779 (Cild I) ilə təsdiq edilmiş "Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası"nın 1.6-cı bəndində "və ya beynəlxalq" sözləri ", xüsusi mühafizə və ya" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 4 sentyabr 2024-cü il

№ 390